***Nigar Vüqar qızı Məmmədova***
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun magistrantı,
"Təhsil və beynəlxalq əlaqələr" şöbəsi
E-mail: 1nigarmamedova@gmail.com

# ORTA ƏSR AZƏRBAYCAN HAMAMLARI HAQQINDA

**Açar sözlər:** Azərbaycan şəhərləri, orta əsrlər, hamamlar, gigiyena
**Ключевые слова**: Азербайджанские города, средневековье, бани, гигиена
**Key words**: Azerbaijani cities, medieval, bathhouses hygiene

Məişət həyatının öyrənilməsi sosial-mədəni antropologiyanın əsas obyektlərindən biridir. Gigiyenanın, sanitariyanın məişət səviyyəsində öyrənilməsi araşdırılan dövrü xarakterizə etmək baxımından olduqca əhəmiyyətlidir. Cəmiyyətdən cəmiyyətə, insandan insana fərqli olan, qavranılan və eyni zamanda fərqli şəkildə tətbiq edilən gigiyena anlayışına fərqli yanaşmalar mövcuddur. Gigiyena insan həyatının bütün mərhələlərində, gündəlik yaşamın bütün sahələrində müəyyən davranışlarla özünü göstərir

Təmizlik tarixən dini, şəxsi, sağlamlıq və s. kimi müxtəlif məqsədlərlə həyata keçirilmiş və bu proses bu gün də davam etməkdədir. Təmizlik prosesində təmiz sudan istifadə və yuyunma üçün çeşmələr, müxtəlif formalı qablar, hovuzlar və hamamlar inşa edildiyi məlumdur.

İnsanın mövcudluğu ilə ortaya çıxan təmizlənmə ehtiyacı tarixdə müxtəlif din və inancların da təsiri nəticəsində hamam binaları olaraq formalaşmış və memarlıq nümunələrinin yaranmasına gətirib çıxarmışdır. Ərəbcədə "isitmək", "isti olmaq" mənasında işlədilən hamm (hame) sözündən yaranan hamam kəliməsinin mənası "isidən yer" olub, yuyunma yeri mənasında işlədilməkdədir.

Bir çox tədqiqatçıların fikrincə, qədimdə suyun günahları və pis şeyləri uzaqlaşdırıldığına dair inamlar mövcud idi. İsti suda yaxalanmağın yorğunluğu çıxartmaqla yanaşı, bir çox xəstəliklərin qarşısını aldığı, əhval-ruhiyyəni qaldırdığı kimi inanclar da vardı. Hamamlar həm də insanların təmizləndiyi, kirdən uzaqlaşdığı yer olaraq bilinir. Hamam həmişə mədəniyyət məkanı, sanitar və gigiyenik baxımdan təmizliyə qovuşmaq yeri hesab edilib. Orta əsrlərdə indi olduğu kimi hər evdə şəxsi hamamlar yox idi. İnsanlar yuyunmaq, təmizlik proseslərini həyata keçirmək məqsədilə hamamlara gedirdilər

Hamamlar eyni zamanda aid olduğu dövrdə cəmiyyətin sosial-mədəni münasibətləri, həmin cəmiyyətdə insanların təmizliyə, sanitariyaya verdiyi önəm, şəxsi və ya ictimai davranışları haqqında məlumat əldə etmək baxımından da xüsusi diqqətə layiqdir. Orta əsr hamamlarını araşdırmaqla, öyrənməklə sanitariyanın insanların həyatında hansı rol oynadığını, o dövrkü gigiyenik qaydaların hansı formada tənzimləndiyini müəyyən edə bilərik. Hamamlar insanların sahib olduqları mədəniyyətin göstəricisi, təzahürü kimi də əhəmiyyətlidir.

Memarlıq quruluşu baxımından eynilik təşkil edən orta əsr hamamlarından istifadənin daşıdığı mahiyyətinə görə bir neçə tipini qeyd etmək olar: 1) universal xarakter daşıyan hamamlar, 2) müalicəvi-sağlamlıq rolu yüksək olan hamamlar, 3) idmanla məşğul olmaq üçün istifadə olunan hamamlar və 4) xüsusi məişət mərasimləri keçirmək üçün gedilən hamamlar.

Orta əsrlərdə şərqdə isti bulaqlarda tikilmiş balneoloji hamamlar məhşurlaşmışdı. Bir çox xəstəlikləri müalicə edən bu tip hamamlara Ərzurum, Bursa, Tiflisdə rast gəlinir. Ərdəbil yaxınlığında Sərein adlanan yerdə isti bulaqlarda əhəmiyyətli dəyişikliklərə məruz qalmış hamam kompleksləri yerləşir (3, s.78).

Hamamlar ictimai məkan olduğundan həm də məişət mərasimləri keçirilən zaman gedilən bir yer idi. Qız bəyənmə, toydan əvvəl keçirilən xınayaxdı, bəy hamamı, gəlin hamamı mərasimləri zamanı hamamlara gedildiyi məlumdur.

Orta əsr Azərbaycanında şəhərlərin sanitar, gigiyenik cəhətdən öyrənilməsində hamamların xüsusi əhəmiyyəti var. Tikilişinə görə Azərbaycan hamamları da Şərq memarlığının inciləri hesab edilə bilər. Hər dövr üçün xarakterik olan memarlıq üslubunda tikilən hamamların orta əsrlər üçün bənzərlik təşkil edən ümumi quruluşu var idi. Hamamlar adətən yerin altında tikilirdi ki, bu da istiliyin tənzimlənməsi, qorunması üçün vacib idi. Orta əsr hamamlarının plan - quruluşu bir-birindən çox da fərqli deyildi. Əsasən, iki böyük düzbucaqlı otaqdan ibarət olan hamamlar, ilk növbədə, suya və rütubətə davamlı daşlardan tikilərdi. Ümumilikdə hamamların oxşar cəhəti, bayır hissəsinin soyunub-geyinmək və içəri hissəsinin yuyunmaq üçün nəzərdə tutulması idi. Bu otaqları da ensiz dəhliz bir-birinə birləşdirərdi. Hamamların hər birinin çimmə salonunda soyuq və isti sututarlar - "xəznə"lər yerləşir

Orta əsrlər Azərbaycanına aid şərq üslubunda tikilmiş bir neçə hamam qeyd etmək olar. Bunlardan biri 2009-cu ildə Ağsu arxeoloji ekspedisiyası tərəfindən Kürdəmir rayonunun Ərəbqubalı kəndi yaxınlığındakı Şəhərgah yaşayış yerində aparılmış qazıntı nəticəsində aşkarlanmış XII əsrə aid Şirvan memarlıq üslubunda tikilmiş hamam kompleksidir (9, s. 78). Digər orta əsr hamamlarına misal olaraq Kəştasif Musa oğlu tərəfindən 1388-ci ildə Nardaranda tikilmiş Xan hamamını, Şirvanşah I Xəlilullahın dövründə tikilmiş Qasım bəy hamamı, XV əsrə aid İçərişəhərdə yerləşən Hacı Qayib və ya Hacı Bani adıyla tanınan hamamını, Qaraqoyunlu hökmdarı Cahanşahın göstərişi ilə Təbrizdə memarlıq kompleksi daxilində inşa edilən hamamı, 1606-cı ildə memar Şeyx Bahəddin Məhəmməd Amilin layihəsi əsasında Gəncədə tikilmiş Çökək hamamını, Şirvanşahlar saray kompleksinə aid olan Saray hamamını, Ağa Mikayıl hamamını (XVIII əsr), Qala kəndində yerləşən Şor, Qum və Bayraməli hamamlarını, XIX əsrdə tikildiyi güman olunan Şəkidəki hamamı, XVIII-XIX əsrlərə aid edilən Qubadakı Çuxur hamamını, Ağa Zeynal hamamını (XIX əsr), Göyçayda XIX əsrə aid hamamı, Şəkidə orta əsrlərə aid edilən hamamı, Ağsuda son orta əsrlərə aid hamamı və s. misal göstərmək olar. Orta əsrlərdə hamamlar yalnız yaşayış məskənləri yaxınlığında deyil, hətta müdafiə tikililəri daxilində də tikilirdi. Təbriz şəhərində inşa edilən islamdan öncəki tarixə aid Süleyman xan qalasındakı hamam buna misal ola bilər (7, s. 194).

Qasım bəy hamamı və ya Şirin hamam Şirvanşah I Xəlilullahın dövründə Salyan darvazalarının yanında inşa edilmişdir. Hamam planlaşdırma strukturu, vestibül hissənin, soyunulan yerin, yuyunma bölmələrinin, xəzinə və odluq kamerasının olması ilə birgə yerli memarlığın ənənəvi üsullarına əsaslanmışdır. Soyunma və çimmə bölmələri künc kameraları ilə xaçşəkilli günbəzi olan otaqlardan ibarətdir. Hamamın mərkəz hissəsi üzərində əsas günbəzlər yerləşdirilmiş səkkizüzlü formadadır. Tağlar, tağtavanlar və günbəzlərlə bölünmüş hamamın daxili məkanı memarlıq və konstruktiv formaların böyük vəhdətlik dərəcəsi ilə fərqlənir. Su ilə təmin etmə, isitmə və qızdırıcı sistemlər, divarların qalın qatlarında və döşəmə altında yerləşdirilmiş keramik borular vasitəsilə həyata keçirilirdi (5, s. 94).

Orta əsrlərə aid Hacı Bani və ya Hacı Qayıb hamamı 1964-cü ildə arxeoloji-tədqiqat işləri aparılarkən aşkar olunmuşdur. Hamam uzun əsrlər boyu torpaq altında qalmışdır. XV əsrin sonlarında tikilmişdir. Hamamın sifarişçisi Hacı Qayib, memarı isə Hacı Bani olmuşdur. Ona görə də hamama ya Hacı Qayib ya da Hacı Bani hamamı deyirlər. Müsəlman şəhərlərinin əsas elementlərindən biri olaraq bu hamam karvan yolu üzərində öz iri həcmli görünüşü ilə seçilir (8).

Plana əsasən hamam üç otaq qrupundan ibarətdir: vestibül, soyunma-geyinmə və yuyunma otaqları. Bütün otaqlar plandakı xaçtipli iki soyunma-geyinmə və yuyunma zallarının ətrafında qruplaşır. Memarlıq formalarında mövcud olan otaqların zəngin örtüklər sistemi hətta kiçik kameraların interyerinə belə son dərəcə bədii ifadəlik verir (4, s. 144).

Çökək hamamı 1606-cı ildə memar Şeyx Bahəddin Məhəmməd Amilin layihəsi əsa-

sında Gəncədə tikilmişdir. Binanın tikintisində gil-əhəng qatışığı və qırmızı kərpicdən istifadə olunub. Bina günbəzlidir.

Saray hamamı Şirvanşahlar saray kompleksinin ən aşağı həyətində yerləşir. İçərişəhərin bütün hamamları kimi bu hamam da temperatur rejimini sabit saxlamaq üçün yeraltında tikilib. Vaxt keçdikcə torpaq qatının qalınlığı artaraq onu tamam örtmüşdür. Hamam iki bölmədən ibarətdir: soyunma yeri və mərkəzdə səkkizüzlü zallarla birgə çimmə yeri. Seksiyalar arasında hərarət rejimini əlaqələndirən və nizamlayan aralıq kameralar mövcuddur. Çimmə bölməsi, otaqların döşəməsini və taxtlarını külxanadan (odluq kamera) gələn qaynar hava ilə, istilik ötürən kanallar sistemi vasitəsilə qızdırılırdı. Hamamın içərisi mərkəzi hissələrdə günbəzlərlə, qalan hissələri isə bayır həcmində aşkar edilmiş tağtavanlarla örtülüb. Hamamın ayrı-ayrı otaqlarında mayolikadan (kaşıdan) istifadə edilmişdir (5, s. 106).

Hacı Ağa Mikayıl hamamı XVIII əsrdə Şamaxı sakini Hacı Ağa Mikayıl tərəfindən İçərişəhərin cənub-qərb tərəfində tikilmişdir. Onun yerləşdiyi ərazi xalq dilində hamamçılar məhəlləsi adlanır. Otaqların daxili quruluşu öz genişliyi ilə digər hamamlardan fərqlənir. 11 metr hündürlüyü olan hamam-abidə 2 böyük və 4 kiçik otaqdan ibarətdir. Üzərində qoşa günbəz olan bu otaqlar səkkizbucaqlı salonun ətrafında cəmləşib. Hamamın xüsusi külxanası - ocaqxanası var. Hamam odun, mazut və neftlə qızdırılardı. Daş döşəmədə vaxtı ilə olan kiçik yarıqlar otaqlara həm də istilik verərdi. Döşəmədən keçən isti buxar sonradan hamamın bacasından bayıra çıxardı. İndi də hamamın romb fiquru formasında tikilən bacası möhkəmliyi ilə diqqəti cəlb edir (2, s.11). Paltar saxlanılan otaqda elə tikilmə dövründən bu günə qədər qorunub saxlanılan kiçik qədim hovuz, döşəmədən yarım metr hündür olan dövrələmə daş oturacağa bənzər yerlər olduğu kimi qalır. Soyunma və yuyunma otaqları kvadrat formalıdır. Otaqlar dörd mərkəzi dayaq sayəsində böyük kompozisiya təşkil edir. Hamamın memarlıq kompozisiyası proporsional təyin olunan yaruslara bölünmüş çatma formalı tağlar, qübbələr və günbəzlərlə ifadə olunmuşdur. Yerli memarlıq formasına uyğun işlənilmiş sərt fasad və daş üzərində üstünlük təşkil edən günbəzlərin cəlbedici həcmi hamamın əsasını təşkil etmişdir. Hamanın içində yeraltı kanallar olub, tavanda isə xüsusi bacalar quraşdırılıb. Beləliklə, istilik elə tənzimlənirmiş ki, həm döşəmə, həm də divarlar qızırmış. Bu sistem həm hamama sərinlik verir, həm də hamamın havası dəyişirmiş (6, s. 12).

Ağa Zeynal özünün həm sifarişçisi, həm də sahibi olduğu hamamı XIX əsrin ikinci yarısında inşa etmişdi. Memarlıq üslubu baxımından digər orta əsr hamamları ilə eynilik təşkil edir. Hamam soyunma-geyinmə otağı, xəzinə (qaynar və soyuq suların saxlandığı yer) və odluq kamerasından ibarətdir (5, s. 96).

Şəki hamamı orta əsr hamamlarının ənənəvi quruluşunu təkrar edir. Hamamın planı, əsasən, iki böyük düzbucaqlı otaqdan ibarət olub, dörd pilonla kiçik otaqlara bölünmüşdür. Bir qrup binalar "çöl" və ya "bayır" adlanaraq soyunub-geyinmək üçün, içəri adlanan salon – başqa bir otaqlar yuyunmaq üçün nəzərdə tutulmuşdur. Soyunma-geyinmə otaqları yuyunma salonu ilə köməkçi otaqlarla birləşirdi. Hər bir salon yuxarıdan günbəzcik şəklində, kəsik deşikli işıq fənərləri olan günbəzlə örtülmüşdür. Soyunma-geyinmə yerinin divarlarında paltar, ləyən və dolça qoymaq üçün çox dərin olmayan taxçalar düzəldilmişdi. Hamama su saxsı borular vasitəsilə yaxınlıqdakı qədim su kəmərindən verilirdi (10, s. 174).

Ağsuda son orta əsrlərə aid edilən hamamın 3,4 m dərinlikdə ocaqxana, qazanxanası aşkar edilib. Qazanxanadan qərb tərəfdəki iki otaq vanna otağıdır. Vanna otaqlarından qərb tərəfdə hamamın III bölməsi, çox güman ki, soyunub-geyinmə otağı yerləşir. Soyunub-geyinmə otağının şimal-şərq küncə yaxın hissəsində eni 1,23 m, uzunluğu 1,32 m, dərinliyi isə 0,46 m olan çarhovuz var. Soyunub-geyinmə otağının həm şimal, həm də cənub divarları təqribən adam boyundan yuxarı hissədə bişmiş kərpiclə tağvari formada hörülüb. Bu, o deməkdir ki, hamamın üstü bişmiş kərpiclə

tağvari formada bağlanıb. Hamam-kompleksin içərisi təmizlənərkən soyunub-geyinmə otağından qərb tərəfdə təqribən 10 kvadratmetrlik kiçik bir otaq daha aşkar olundu. Çay daşlarından hörülmüş pilləkən (eni 91 sm) aşkar edilmişdir ki, bu da hamamın yer səthindən xeyli dərində olduğunu göstərir. Bu isə ümumiyyətlə orta əsr hamamları üçün xarakterik haldır. Bu cür hamamlar, adətən, yayda sərin, qışda isə isti olurdu (1 s. 40-42).

Qeyd olunan orta əsr hamamları o dövr üçün Azərbaycan şəhərlərində mövcud olan gigiyena, sanitariya, dolayısı ilə sağlamlıq vəziyyəti, eyni zamanda digər sosial əhəmiyyətli məsələlər haqqında fikir söyləməyə əsas verir.

## ƏDƏBİYYAT

1. Ağsu şəhəri orta əsrlərdə (tarixi-arxeoloji araşdırma, II buraxılış, Ağsu arxeoloji ekspedisiyasının 2010-cu il tədqiqatları)
2. Cəbiyeva T. Mikayıl Ağa hamamı, Azərbaycan qəzeti. 26 may 2010
3. Əmənzadə R. Orta əsrlərdə Azərbaycanın müalicə-sağlamlıq tikililəri, Azərbaycan Arxeologiyası. 2002. №3-4
4. Fərhadoğlu K. Bakı: İçərişəhər, Bakı 2006.
5. Fətullayev Ş.S. Bakının memarlıq ensiklopediyası, Bakı 2013.
6. Mehparə Qədim hamamların yeni həyatı, Mədəniyyət qəzeti .11yanvar 2012
7. Məmmədova İ. Təbriz şəhərinin maddi-mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat) Bakı. 2016
8. Ölkə əhəmiyyətli abidələr. Hacı Bani hamamı, http://www.icherisheher.gov.az / static, 20/lang,az/
9. Rəcəbov M. İ. Cənub-qərbi Şirvanın ilk orta əsr yaşayış yerindən tapılmış dulusçuluq nümunələri haqqında. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası 2014. № 2
10. Salamzadə Ə.R., İsmayılov M.Ə., Məmmədzadə K.M., Şəki, tarixi-memarlıq oçerki. Bakı. 1988

***Мамедова Нигар Вугар кызы***

## О СРЕДНЕВЕКОВЫХ БАНЯХ АЗЕРБАЙДЖАНА

### *РЕЗЮМЕ*

Бани имеют большое значение в быту и являются местами очищения людей. Обусловленные религиозными представлениями и социальных процессов в обществе, бани дают информацию о быте и культуре населения в конкретный период времени. Средневековые бани также предоставляют информацию о гигиене, санитарии, иными словами, о состоянии здоровья, в то же время о других социально значимых процессах. С идентичными архитектурными структурами, но отличающиеся по своим функциям, бани в городах Азербайджана деляться на несколько групп.

***Mammadova Nigar Vuqar gizi***

## ABOUT MEDIEVAL BATHHOUSES OF AZERBAIJAN

### *SUMMARY*

Bathhouse is a very important place for people to clean dirt, filth. Medieval bathhouses formed under the influence of religions and social processes in the society provide essential information on the existing system of that time. Although Azerbaijani bathhouses have the same architectural structure, they are divided into several groups according to their functions. Medieval bathhouses help us to express an opinion about hygiene, sanitation, therefore health conditions and other socially important issues in the medieval cities of Azerbaijan during that time.